# BAKI ŞƏHƏRİ, NİZAMİ RAYONU, 175 NÖMRƏLİ "ŞƏNLİK" KÖRPƏLƏR EVİ-UŞAQ BAĞÇASININ 30 İLLİK YİBİLEYİ

**İlqar İsgəndərov,**
"Məktəbəqədər və ibtidai təhsil"
jurnalının şöbə redaktoru



**Azərbaycan Respublikasının vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev fondunun vitse-prezidenti Leyla Əliyeva bağçanın açılış mərasimində**

2017-ci il, oktyabr ayının 3-də Azərbaycanın birinci xanımı, Azərbaycan Respublikasının vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev fondunun vitse-prezidenti Leyla Əliyeva Nizami rayonunda əsaslı təmirdən sonra istifadəyə verilən 175 nömrəli "Şənlik" körpələr evi-uşaq bağçasının açılış mərasimində iştirak etmişlər.

Mehriban Əliyeva körpələr evi-uşaq bağçasının açılış rəmzi olan lenti kəsdi.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov məktəbəqədər təhsil müəssisəsinin 2 korpusdan ibarət olduğunu bildirdi. Qeyd etdi ki, burada 6 qrup üzrə 110 uşaq tərbiyə alırdı. Bağçaya tələbatın çox olduğu nəzərə alınaraq bu il yeni korpus inşa edildi, əvvəlki korpusda isə əsaslı təmir işləri aparıldı.Bununla da körpələr evi-uşaq bağçasında qrupların sayı 6-dan 12-yə çatdırıldı, uşaqların sayı isə 230 nəfər oldu. Müəssisədə balacaların təlim-tərbiyəsi ilə 70 nəfərdən ibarət pedaqoji heyət məşğul olur. Məktəbəqədər müəssisədəki 12 qrupdan 10-u azərbaycandilli, 2-si isə rusdilli qruplardır. Burada 2 yaş qrupu – 2-3 yaş arası və 3-6 yaş arasında olan uşaqlara qayğı göstərilir.

Mehriban Əliyeva və Leyla Əliyeva bağçadakı Heydər Əliyev guşəsinə, həmçinin milli guşəyə baxdılar. Burada uşaqların və pedaqoqların əl işləri təsvir olunur. Bağçada uşaqların vətənpərvərlik ruhunda tərbiyəsi üçün "Vətənpərvərlik guşəsi" adlı otaq da var. Burada balacalara öz yaradıcı potensiallarını aşkara çıxarmaq imkanı verilir. Uşaqlar ingilis dili və kompüter biliklərinə yiyələnmək imkanı da qazanacaqlar. Bunu nəzərə alaraq ikinövbəli müəssisədə planetari guşəsi də yaradılıb. Burada balacalar ilkin, sadə astronomik biliklərə yiyələnə biləcəklər. Əsas məqsəd onları I sinifdə təhsil almağa hazırlamaqdır. Əsaslı təmir olunan binada idman zalı, mətbəx yerləşir. Həyətdə isə futbol, qolf meydançaları, uşaqların yol hərəkəti qaydalarını öyrənmələri üçün xüsusi meydança, istirahət guşələri var.

Mehriban Əliyeva məktəbəqədər müəssisədə şəraitin yüksək səviyyədə olduğunu bildirdi.

Azərbaycan Respublikasının Vitse-prezidentinə binanın ətrafında aparılan abadlıq-quruculuq işləri barədə məlumat verildi.

2017-ci il, noyabr ayının 25-də bağçanın 30 illik yubileyi münasibətilə tədbir keçirilmişdir. Tədbirdə Nizami Rayon İcra Hakimiyyətinin başçısı Arif Qasımov, Milli Məclisin deputatları Sədaqət Vəliyeva və Rasim Musabəyov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova, Bakı Şəhər İcra Hakimiyyəti başçısı aparatının rəhbəri Rasim Quliyev, Rayon İcra Hakimiyyəti başçısının müavini Gülnaz İsrafilova, Təhsil Nazirliyi Məktəbəqədər təhsil sektorunun müdiri Nərminə Alnağıyeva və digər qonaqlar iştirak edirdilər.



**Balacalar 2018-ci ilin məzun buraxılışında**

Məktəbəqədər müəssisənin müdiri Zemfira Əsədova qonaqları salamladı, müəssisənin 30 illik fəaliyyəti haqqında məlumat verdi. 30 il əvvəl hər şeyin necə başlandığının əks olunduğu sənədli film nümayiş etdirildi.

“Şənlik” uşaq bağçasının istedadlı balacalarından ibarət Şən və Hazırcavablar qrupu müxtəlif səhnəciklər nümayiş etdirdilər.

“Şənlik” uşaq bağçasının məzunları – Q.Almaszadə adına Klassik və Milli rəqs üzrə I Beynəlxalq müsabiqənin laureatı Kamran Həsənov, Bülbül adına orta-ixtisas musiqi məktəbinin şagirdi, Habil Əliyev adına gənc kamança ifaçılarının I Respublika müsabiqəsinin laureatı Fatimə Hacızadə və Bakı Musiqi Akademiyasının məzunu, 2017-ci ildə Bakı caz müsabiqəsinin laureatı Tural Qasımlının ifaları alqışlarla qarşılandı.

Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova Fəxri Fərman, hədiyyələr təqdim edərək, bağça kollektivinə gələcək fəaliyyətində uğurlar arzuladı. Məktəbəqədər müəssisənin hazırkı səviyyəyə gəlib çatmasında onun rəhbəri Zemfira Əsədovanın fəaliyyəti xüsusi qeyd olundu.

Bakı Şəhər İcra Hakimiyyəti başçısı aparatının rəhbəri Rasim Quliyev çıxış edərək Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbovun sərəncamı ilə 175 nömrəli körpələr evi-uşaq bağçasının müdiri Zemfira Əsədovanın Fəxri Fərmanla, kollektivin bir qrup üzvünün isə təşəkkürnamələrlə təltif olunduğunu bildirdi və onları təbrik etdi.

Gözəl şəraiti, pedaqoji kollektivinin elmi səviyyəsi və fəaliyyəti ilə Bakı şəhərində ad qazanan “Şənlik” körpələr evi-uşaq bağçası respublikanın məktəbəqədər müəssisələri üçün gözəl nümunədir.